# Regional liderin beynəlxalq inteqrasiya vektorları



*Azərbaycanın keçdiyi tarixi-mədəni inkişaf yolu onun çağdaş siyasi və iqtisadi qüdrətinin ideoloji-fəlsəfi təməlini təşkil edir. Geosiyasi koordinatları ölkəmizi Xəzər hövzəsindən Mərkəzi Asiyaya, Cənubi Qafqazdan Yaxın Şərqə qədər uzanan məkanda qərarverici mühüm aktora çevirir. Həm də bu mövqe Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunu müəyyənləşdirir. Enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri və sivilizasiyalararası dialoqu təşviq edən institutlaşmış siyasət ölkəmizi geostrateji mərkəzə çevirir. Bu nailiyyətlərin əsasında Prezident İlham Əliyevin ideoloji prinsiplərə söykənən praqmatik və çevik liderlik nüfuzu dayanır. Ölkə başçısının rəhbərliyi ilə Azərbaycan regional sabitliyin, təhlükəsizliyin və inklüziv inkişafın qarantıdır.*

Ölkəmizin əlverişli geosiyasi mövqeyi yalnız fiziki coğrafiya ilə məhdudlaşmır, həm də iqtisadi və siyasi gücünün, diplomatik nüfuzunun formalaşmasında əsas amil olaraq çıxış edir. Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən çoxşaxəli xarici siyasət Azərbaycanı Şərqlə Qərb arasında strateji tranzit və əməkdaşlıq körpüsünə çevirərək beynəlxalq əlaqələrdə yeni və müasir çağırış yaradır. Azərbaycanın qonşu dövlətlər və regional aktorlarla tarixi, mədəni və iqtisadi əlaqələri inkişaf etdirərək qarşılıqlı hörmət və bərabərlik prinsipinə əsaslanan güclü diplomatik münasibətlər yaradır. Xüsusilə Xəzər dənizinin sahilindəki türkdilli dövlətlər, İranla həyata keçirilən əməkdaşlıq bölgənin enerji təhlükəsizliyi və geosiyasi sabitliyinə mühüm töhfə verir. Yaxın Şərq ölkələri ilə əlaqələrin dərinləşdirilməsi enerji resursları və humanitar sahələrdə əhəmiyyətli nəticələr əldə olunmasına şərait yaratmışdır. 2024-cü ildə Azərbaycan Yaxın Şərq və Şimali Afrika ilə enerji ticarətində 25 faiz artım əldə etmişdir. Bu artım Azərbaycanın regionda enerji təhlükəsizliyi və sabitlik sahəsindəki müsbət təsirini daha da gücləndirir.

Cənubi Qafqazda baş verən mühüm dəyişikliklərin mərkəzində Azərbaycanın regional rolu var. Coğrafi mövqeyi, tarixi tranzit təcrübəsi və müasir nəqliyyat-logistika infrastrukturu ilə Azərbaycan Avropa ilə Asiya arasında strateji körpüyə çevrilir. Bu çərçivədə Orta Dəhliz, yeni Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Azərbaycanın regional və qlobal əhəmiyyətini daha da artırır.

Orta Dəhliz Çindən başlayaraq Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropaya uzanan, Şərq-Qərb dəhlizlərinin ən perspektivli marşrutlarından biridir. Azərbaycanın bu dəhliz üzərində yerləşməsi ölkəni təkcə tranzit məntəqəsi deyil, həm də yük və sərnişin axınının idarə olunduğu əsas logistik mərkəzlərdən birinə çevirir. Ölkəmiz Orta Dəhliz üzrə yüklərin həcminin artırılması məqsədilə Gürcüstan və Mərkəzi Asiya ölkələri ilə sıx dialoq və koordinasiya aparır. Bu əməkdaşlıqlar iqtisadi, siyasi sabitlik və etimad platforması olaraq bölgəyə müsbət təsir göstərir. Bu kontekstdə Azərbaycan-Gürcüstan əməkdaşlığı, xüsusilə nəqliyyat və enerji sahələrində örnək xarakteri daşıyır. Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz kəməri və Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti bu əməkdaşlığın bariz nümunələridir.

BTC kəməri 1768 km uzunluğundadır və gündəlik 1,2 milyon barel neft daşımaq gücünə malikdir. Onun 443 kilometri Azərbaycan ərazisindən keçir. BTƏ qaz kəməri isə ildə təxminən 20 milyard kubmetr qaz nəql edir və bu kəmər boyunca enerji təhlükəsizliyi regionaldan qlobal səviyyəyə yüksəlir. 2024-cü ildə yenidən qurulan və illik yükdaşıma qabiliyyəti 5 milyon tona çatdırılan BTQ dəmir yolu xətti həm ticarət həcminin artmasına, həm də qədim İpək Yolunun müasir formatda canlanmasına təkan verir. Bu xətt təkcə fiziki yük daşıma vasitəsi deyil, həm də Azərbaycanın logistika potensialının simvoludur.

Azərbaycanın təşəbbüsləri sayəsində Orta Dəhliz regional sabitliyin dayağına çevrilir. Bu dəhliz üzərində yerləşən ölkələrin iqtisadi inteqrasiyası, siyasi koordinasiyası və qarşılıqlı etimadı sayəsində bölgədə sabitlik və inkişaf üçün yeni imkanlar yaranır. Ölkəmiz bu dəhlizin strateji planlayıcısı və mərkəzi aktoru olaraq çıxış edir. Bu baxımdan, Bakı beynəlxalq yükdaşımaların koordinasiya mərkəzinə çevrilmək yolunda əhəmiyyətli addımlar atır.

Orta Dəhliz ətrafında formalaşan əməkdaşlıq formatı Azərbaycanın regional liderliyini daha da gücləndirir. Enerji, logistika və infrastruktur sahələrində həyata keçirilən layihələr ölkəmizi yalnız Cənubi Qafqazda deyil, daha geniş coğrafiyada əsas oyunçu mövqeyinə gətirir. Bu dinamika fonunda Azərbaycanın strateji baxışları həm regional sabitliyin qorunmasına, həm də qlobal ticarət yollarının davamlı inkişafına töhfə verir.




Prezident İlham Əliyev bu məsələ ilə bağlı aprelin 9-da ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda deyib: "Bizi birləşdirən layihələrdən çox danışa bilərik. Onlar yaxşı məlumdur və bununla vaxtınızı almaq istəməzdim. Ancaq onlar yalnız bizim xalqlarımız və ölkələrimiz üçün deyil, daha geniş coğrafiya üçün vacibdir. Hazırda isə biz buraya yaşıl gündəliyi əlavə edirik. Biz artıq buna qısa şəkildə toxunduq. Bu, Azərbaycan və Gürcüstan üçün yaşıl dəhlizdir. Bu, nəqliyyat dəhlizidir, Orta Dəhlizdir - bunlar qaçılmazdır".

Azərbaycanın Avropa ilə əlaqələri də strateji müstəviyə yüksəlib. 2023-cü ildə Azərbaycan Avropa İttifaqı ilə enerji sahəsində 40 milyard avro dəyərində müqavilə imzalayıb və bu əməkdaşlıq təbii qaz, elektrik enerjisi və bərpaolunan enerji sahələrini əhatə edir. Son 5 ildə Azərbaycanın Avropa ilə ticarət dövriyyəsinin 60 faiz artması Qərb bazarlarında onun yerini nümayiş etdirir. 2023-cü ildə Azərbaycan Avropaya 12,5 milyard kubmetrdən çox təbii qaz ixrac edib və bu, Avropanın enerji təhlükəsizliyində ölkəmizin rolunu artıran əsas amildir.

XXI əsrdə dövlətlərin qlobal arenadakı gücü yalnız hərbi və ya siyasi imkanlarla deyil, enerji resurslarına sahiblik və bu resursların effektiv idarəçiliyi ilə də ölçülür. Enerji layihələrində tətbiq olunan maliyyələşdirmə modeli beynəlxalq standartlara tam cavab verir. İstər neft, istərsə də təbii qaz sektorunda - istismar və nəql mərhələlərində - maliyyə vəsaitlərinin 70 faizi kredit, 30 faizi isə korporativ investisiyalar hesabına formalaşdırılıb. Bu model risklərin idarə olunması, kapital axınlarının sabitliyi və layihələrin dayanıqlılığı baxımından optimal mexanizmdir.

2022-ci ildə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Azərbaycana səfəri zamanı imzalanan energetika sahəsində Strateji Tərəfdaşlıq Bəyannaməsi qitənin enerji təhlükəsizliyi baxımından dönüş nöqtəsi oldu. Azərbaycanın qaz ixracı 2021-ci ildəki 8 milyard kubmetrdən 2024-cü ildə 13 milyard kubmetrə qədər artırılıb ki, bu da 60 faizlik artım deməkdir. Bu həcm təkcə kəmiyyət deyil, həm də keyfiyyət baxımından Azərbaycanın Avropa üçün nə qədər etibarlı tərəfdaş olduğunu təsdiqləyir. Hazırda Azərbaycan 12 ölkəyə qaz ixrac edir, bunların 10-u Avropa ölkəsi, qalanı isə Avropa İttifaqının üzvüdür. Bu göstərici Azərbaycanın enerji sahəsində mühüm geoiqtisadi və geosiyasi aktora çevrildiyini nümayiş etdirir.

Azərbaycanın enerji strategiyasının əsas istiqamətlərindən biri də Cənub Qaz Dəhlizidir. Bu layihə Avropanın enerji xəritəsində yeni geosiyasi reallıqlar yaradıb. Cənub Qaz Dəhlizinin əsas seqmenti olan Trans-Adriatik Boru Kəməri (TAP) (878 km) Yunanıstan, Albaniya, Adriatik dənizi və İtaliya ərazilərindən keçir. Bu kəmərlə Azərbaycan qazının Avropaya nəqli 2020-ci ilin sonunda başlamış və sistemli şəkildə artırılmışdır. Azərbaycan və Aİ arasında əldə olunmuş razılaşmaya əsasən 2027-ci ilə qədər Avropaya qaz ixracının 20 milyard kubmetrə çatdırılması planlaşdırılır. TAP-ın genişləndirilməsi çərçivəsində İtaliya 1 milyard kubmetr, Albaniya isə 200 milyon kubmetr Azərbaycan qazı alacaq.

Ölkəmizin enerji strategiyasının təməl daşlarından biri də "Şahdəniz" yatağı və onun ikinci işlənmə mərhələsidir. "Şahdəniz-2" layihəsi ilə əlavə 16 milyard kubmetr qaz hasilatı nəzərdə tutulur. Bu, "mavi yanacaq" Avropa ölkələri üçün strateji resurs mənbəyidir. Layihə Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini daha da gücləndirir və ölkəmizin iqtisadi imkanlarını şaxələndirir. Prezident İlham Əliyev tərəfindən irəli sürülmüş "yaşıl enerji" konsepti də Azərbaycanın iqtisadi inkişaf strategiyasının ayrılmaz hissəsidir. Günəş və külək enerjisi stansiyalarının tikintisi, alternativ enerji mənbələrinin inkişafı ölkəmizin enerjidən asılı olmayan gələcəyini formalaşdırmaqla yanaşı, qaz resurslarına qənaət etməyə və ixrac həcmlərini artırmağa imkan verir. Bu da Azərbaycanın enerji istehsalçısı və ixracatçısı kimi rolunu daha da gücləndirir.

Azərbaycan qazının Albaniyanın Korça şəhərinə çatdırılması üçün qazlaşdırma layihəsi məhz ölkəmizin sərmayələri hesabına həyata keçirilir. Eyni zamanda Bolqarıstanda da qazlaşdırma sahəsində əməkdaşlıq dərinləşdirilir. Artıq bu ölkə qaz tələbatının 50 faizini Azərbaycandan alır. Bu faktlar ölkəmizin regionda yalnız enerji ixracatçısı deyil, həm də qurucu və investisiya yatıran lider ölkə olduğunu sübut edir.

Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan etibarlı tərəfdaşlıq siyasəti ilə Avropada və dünyanın digər hissələrində strateji müttəfiqlik anlayışını yeni səviyyəyə qaldırıb. Ötən il imzalanan 20-dən çox strateji tərəfdaşlıq müqaviləsi ölkəmizin beynəlxalq arenada dinamik və güclü aktor olaraq yüksəlməsini təmin edib. Dövlət başçımızın rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkədə siyasi sabitliyi möhkəmləndirib, iqtisadi müstəqilliyi təmin edib və sosial rifahı yüksəldib. Neftdən əldə edilən uğurlar qeyri-neft sektorunun inkişafı, infrastruktur layihələrinin genişlənməsi və insan kapitalının gücləndirilməsi istiqamətində effektiv şəkildə istifadə olunub.

Bu gün Qərbdən Mərkəzi Asiyaya, eləcə də əks istiqamətdə strateji əməkdaşlıq layihələri müzakirə edilərkən Azərbaycanın adı ön sıralarda çəkilir. Ölkəmiz coğrafi mövqeyini strateji gücə çevirərək balanslaşdırılmış və praqmatik siyasət yürüdür. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz regional liderə çevrilib, beynəlxalq aləmdə etibarlı tərəfdaş imicini möhkəmləndirib. Bu uğur modeli sabitlik, inkişaf və əməkdaşlıq üzərində qurulmuş yeni dövrün nümunəsidir.

Ölkəmizin xarici siyasəti milli maraqlara və beynəlxalq hüquqa əsaslanır. Azərbaycanın həm Qərb, həm də Şərqlə eyni səviyyədə sıx münasibətlər qurması onun geosiyasi tarazlıq yaratmaq bacarığının nəticəsidir. Bu balanslı yanaşmanın ən bariz nümunələrindən biri Türkiyə ilə İsrail arasında yaşanan münasibət böhranında Azərbaycanın rolu ilə bağlıdır. İki mühüm dövlət - biri Azərbaycanın qardaşı və strateji müttəfiqi Türkiyə, digəri isə uzun illərdir əməkdaşlıq etdiyi və dostluq münasibətləri qurduğu İsrail. Bu iki ölkə arasında gərginliyin aradan qaldırılmasında Azərbaycan təmkinli diplomatik addımlar ataraq prosesdə mühüm vasitəçi rolunu oynayıb.

Prezident İlham Əliyev bu məsələ ilə bağlı aprelin 9-da ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumunda deyib: "Artıq məlum olduğu kimi, - baxmayaraq ki, biz özümüz bunu açıq şəkildə heç vaxt bəyan etməmişik, bu, artıq kifayət qədər geniş şəkildə yayılıb, - Türkiyə ilə İsrail arasında ilk uğurlu barışıq müəyyən dərəcədə Azərbaycanın vasitəçiliyi ilə əldə olunub. Çünki indi iki ölkə arasında baş verənlər ilk böhran deyil, yaxın keçmişdə ikincidir. İlk böhran zamanı biz ölkələri yaxınlaşdırmağa çalışmaq üçün fəal rol oynadıq. Bu, təkcə Azərbaycan deyildi, lakin deyərdim ki, Azərbaycan bu prosesdə birinci yerdə idi. Yenə də bu, bağlı qapılar arxasında baş verdi. Biz bunu heç vaxt ictimailəşdirmədik. Biz buna görə heç vaxt özümüzü tərifləməyə çalışmadıq. Biz, sadəcə olaraq, müttəfiqimiz və qardaşımız olan Türkiyəyə, dostumuz İsrailə öz əlaqələrini yenidən qurmaq üçün yardım etmək istədik".

Azərbaycan bir çox regional və beynəlxalq məsələlərin həllində balanslaşdırıcı və sabitləşdirici rol oynayıb, əksər dünya dövlətləri ilə yüksək səviyyəli münasibətlər qurub. Ölkəmiz həm İslam Əməkdaşlıq Təşkilatında, həm də Qoşulmama Hərəkatına sədrliyi dövründə qlobal ədalət və bərabərlik məsələlərində fəal mövqe nümayiş etdirib.

Prezident İlham Əliyevin uğurlu və praqmatik xarici siyasəti nəticəsində Azərbaycan bu gün regionda sabitliyin əsas dayaqlarından biri, beynəlxalq aləmdə isə etibarlı tərəfdaş kimi qəbul olunur. Bu siyasət Azərbaycanı XXI əsrdə barış, tərəqqi və qarşılıqlı hörmətin təmsilçisi kimi dünyaya tanıdır.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**

Respublika .- 2025.- 11 aprel (№ 70).- S.8.